# Ukrayna Azərbaycanı özünə etibarlı dost və strateji tərəfdaş hesab edir

**Son 16 ildə aparılan uğurlu xarici siyasət Azərbaycanın dünya birliyindəki əlaqələrini daha da möhkəmləndirib. Bu illər ərzində həyata keçirilən islahatlar ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayını xeyli artırıb. Dünyada sabitlik adası kimi tanınan Azərbaycan artıq etibarlı dost və tərəfdaş imicini də qazanıb. Hər dəfə dövlətimizin başçısının xarici səfərləri, eyni zamanda, ölkəmizdə dövlət və hökumət başçıları ilə görüşləri böyük maraqla izlənilir. Ukrayna Prezidenti Vladimir Zelenskinin Bakıya rəsmi səfəri də diqqət mərkəzində oldu. Bu həm də Ukrayna Prezidentinin ölkəmizə ilk rəsmi səfəri idi.**

Azərbaycan–Ukrayna dostluq münasibətləri hələ Sovet İttifaqı dönəmində də müsbət çalarları ilə diqqətdən yayınmırdı. Həmin dövrdə Azərbaycan–Ukrayna arasında ölkədaxili iqtisadi-ticarət, elm, təhsil, səhiyyə, idman və digər sahələrdə əlaqələr davam etmişdir. Bu illərdə Ukraynanın ali təhsil müəssisələrində onlarca azərbaycanlı mütəxəssis yetişmiş, həyatını və peşəsini bu respublika ilə həmişəlik bağlayan soydaşlarımız çoxalmışdır. Eyni zamanda, siyasi və humanitar sahələrdə də sıx tərəfdaşlıq əlaqələri olmuşdur.

1991-ci ildə – SSRİ-nin süqutundan sonra dövlət müstəqilliyini elan edən postsovet ölkələri arasında keyfiyyətcə yeni münasibətlər formalaşdı. Azərbaycan Respublikası ilə Ukrayna arasında həm tarixi köklərə və əlaqələrə, həm də hər iki ölkənin və xalqın inkişaf maraqlarına uyğun olan əməkdaşlıq bərqərar oldu. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası həmin il dekabrın 6-da Ukraynanın dövlət müstəqilliyini tanıdı və 31 yanvar 1992-ci ildə ölkələrimiz arasında diplomatik münasibətlər quruldu. Lakin müstəqilliyimizin ilk illərində dövlətlərarası münasibətlər çox ləng irəliləyirdi.

1993-cü ilin ikinci yarısından başlayaraq, digər sahələrdə olduğu kimi, dövlətlərarası münasibətlərdə də yeni mərhələnin əsası qoyuldu. 1996-cı ildə Ukraynanın Azərbaycanda, 1997-ci ildə isə Azərbaycanın Ukraynada səfirliyi açıldı. Həmin vaxtdan başlayaraq dövlətlərarası münasibətlər, əməkdaşlıq və tərəfdaşlıq getdikcə daha da yaxşılaşdırıldı. Əlaqələrin daha da möhkəmləndirilməsi məqsədilə yaxın illərə qədər iki ölkə arasında müxtəlif sahələr üzrə 120-yə yaxın sənəd imzalanıb. Ölkə prezidentlərinin, parlament və hökumət başçılarının, o cümlədən xarici işlər nazirlərinin ümumilikdə 55-ə yaxın qarşılıqlı səfərləri baş tutub. Bütün bunlar iki ölkə arasında münasibətlərin inkişafının göstəricisidir.

Ukrayna Prezidenti Vladimir Zelenskinin ölkə başçısı seçildikdən bir müddət sonra respublikamıza rəsmi səfərə gəlməsi təsadüfi sayıla bilməz. Bu, ilk növbədə, dostluq və əməkdaşlıq əlaqələrinin qədim tarixə malik olmasının və ölkəmizin dünyada artan nüfuzunun, ən güclü dövlətlər sırasında yer almasının nəticəsidir. Artıq dünyanın nüfuzlu agentlikləri, sorğu mərkəzləri də Azərbaycanın dünyanın sayılıb-seçilən dövlətlərindən olduğunu faktlarla əsaslandırırlar. Yeri gəlmişkən, bugünlərdə ABŞ-ın "U.S. News & World Report" jurnalında dərc olunmuş reytinq siyahısında dünyanın ən güclü 80 dövləti sırasında Azərbaycanın adı 45-ci yerdə qərarlaşıb. Bu, ölkəmizin dünyada artan nüfuzunun göstəricisidir.

> ***Bizim münasibətlərimiz zamanın sınağından keçib. Biz çətin vaxtlarda bir-birimizə hər zaman dayaq olmuşuq. Azərbaycan Ukrayna üçün həmişə etibarlı dost və mühüm strateji tərəfdaş olmuşdur və bu gün də bu, belədir.***
>
> **Vladimir ZELENSKİ**
> **Ukrayna Prezidenti**



Dövlətimizin başçısı da Ukrayna Prezidentinin ölkəmizə rəsmi səfərini qiymətləndirərkən bu məqamı diqqətə çatdırdı. Vladimir Zelenskinin Azərbaycana rəsmi səfərə gəlməsindən məmnunluğunu ifadə edən Prezident İlham Əliyev bunu ölkəmizə olan diqqətin təzahürü kimi dəyərləndirdi. Qeyd etdi ki, bizim ölkəmiz də Ukrayna – Azərbaycan əlaqələrinin inkişafına çox böyük diqqət yetirir. Həm təkbətək formatda, eyni zamanda, nümayəndə heyətlərinin iştirakı ilə danışıqlarda Ukrayna – Azərbaycan ikitərəfli əlaqələrinin müxtəlif aspektlərinin geniş müzakirə olunduğunu və çox səmərəli fikir mübadiləsi aparıldığını diqqətə çatdıran dövlətimizin rəhbəri ölkələrimiz arasında siyasi əlaqələrin də yüksək səviyyədə olduğunu bildirdi.

Səfər çərçivəsində aparılan danışıqlar zamanı Ukrayna–Azərbaycan ikitərəfli Hökumətlərarası Komissiyasının fəaliyyətinin gücləndirilməsi, ticarət dövriyyəsinin artırılması, iqtisadi, biznes dairələrinin birgə fəaliyyət sahələrində, Ukraynanın Azərbaycana, həm də Azərbaycanın Ukraynaya sərmayə qoyuluşu ilə bağlı konkret təkliflər, energetika sahəsində əməkdaşlıq müzakirə edildi. Dövlətimizin başçısı bu sahələrdə əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndiriləcəyinə əminliyini ifadə etdi və son illər ölkəmizə qoyulan sərmayə barədə məlumat verdi: "Son 15 il ərzində Azərbaycana 270 milyard dollar sərmayə qoyulubdur. Bu sərmayənin yarısı xarici sərmayədir. Bu, onu göstərir ki, ölkəmizdə çox gözəl investisiya iqlimi vardır, xarici investorların maraqları var və buraya qoyulan vəsait dövlət tərəfindən qorunur. Ukraynada da investisiya iqlimi yaxşılaşır. Biz bunu görürük və böyük investisiyalarla, özəlləşdirmə ilə bağlı böyük planlar var. Bu barədə biz Prezidentlə danışdıq, hesab edirəm ki, Azərbaycan şirkətləri müxtəlif investisiya layihələrində fəal iştirak etməlidirlər".

Son 15 il ərzində Azərbaycanda iqtisadi artımın sürətlə getdiyi, iqtisadiyyatın 3 dəfədən çox, ümumi daxili məhsulun 300 faizdən çox artması, yoxsulluğun səviyyəsinin 50 faizdən 5 faizə enməsi, son illər təqdim olunan sosial paket və bunun 4 milyon 200 min nəfəri əhatə etməsi, minimum əməkhaqqının 2 dəfə, minimum pensiyanın 70 faiz, bəzi müavinətlərin 50 faiz, bəzilərinin isə 100 faiz artırılması, infrastruktur layihələrinə böyük önəm verilməsi maraqla qarşılandı. Müzakirələr zamanı bəlli oldu ki, Azərbaycan hazırda borcalan ölkə yox, borcverən ölkədir. Hazırda xarici ölkələrə qoyulan sərmayələrin miqdarı 20 milyard dolları ötüb.

İki ölkə arasında energetika sahəsində də əməkdaşlıq yüksək səviyyədə davam etdirilir. Dövlətimizin başçısı SOCAR-ın artıq uzun illərdir ki, Ukraynada fəaliyyət göstərdiyini, altmışdan çox yanacaqdoldurma məntəqəsinin, dörd neft bazasının fəaliyyət göstərdiyini diqqətə çatdırdı. Müzakirələr zamanı SOCAR-ın Ukraynadakı fəaliyyətinin genişləndirilməsi və konkret addımlar atılması barədə razılıq əldə olundu. Həmçinin qeyd edildi ki, əvvəlki illərdə kənd təsərrüfatı sahəsində də əməkdaşlıq aparılırdı. Hətta, Azərbaycan Ukraynadan 400-dən çox kənd təsərrüfatı texnikasını aldığı da diqqətə çatdırıldı. Bu sahədə də əməkdaşlığın davam etdirilməsinin zəruriliyi bildirildi.

Ölkələr arasında turizmin inkişafı prioritet məsələ kimi müzakirə mövzusu oldu. Dövlətimizin başçısı bu barədə məlumat verərək dedi: "Digər önəmli məsələ, – bu gün bu məsələyə kifayət qədər böyük vaxt ayrıldı, – turizmin inkişafıdır. Həm Azərbaycanın, həm də Ukraynanın çox böyük və zəngin turizm imkanları vardır. Bu sahədə də birgə əməkdaşlıq, təcrübə mübadiləsi, birgə layihələr müzakirə edildi, geniş fikir mübadiləsi aparıldı və konkret tapşırıqlar verildi".

Son illər respublikamızda humanitar sahədə həyata keçirilən beynəlxalq tədbirlər də təsdiqləyir ki, mədəniyyətlər və sivilizasiyalararası dialoqa böyük önəm verilir. Təbii ki, iki ölkə arasında humanitar sahədə də əməkdaşlıq müzakirə mövzusu olmalı idi. Azərbaycanda Ukrayna mədəniyyətinə çox böyük hörmətin olması, Ukrayna dilinin tədris edilməsi, Bakı Slavyan Universitetində Ukrayna Mərkəzinin yaradılması, eyni zamanda, Ukraynanın ali məktəblərində Azərbaycan tarixinə, ədəbiyyatına kifayət qədər böyük yer ayrılması, humanitar sahədə əməkdaşlığın daha da möhkəmləndirilməsində mühüm rol oynayacağı diqqətə çatdırıldı.

> ***Biz bu gün çox geniş fikir mübadiləsi aparmışıq, bir neçə önəmli sənəd imzalanıb. Əsas odur ki, bizim aramızda yaranan qarşılıqlı etimad, əminəm ki, Ukrayna – Azərbaycan əlaqələrinin inkişafı üçün önəmli rol oynayacaq.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

Ukrayna Prezidenti Azərbaycana ilk rəsmi səfərindən məmnunluğunu ifadə etdi və Azərbaycanın çox qonaqpərvər və dost ölkə olduğunu xüsusi vurğuladı. Mətbuata bəyanatında o bildirdi ki, Azərbaycan həmişə Ukrayna üçün etibarlı dost və mühüm strateji tərəfdaş olmuşdur. Bu münasibətləri daha yüksək mərhələyə qaldırmaq üçün böyük imkanların olduğunu qeyd etdi. Energetika, kənd təsərrüfatı, turizm, infrastrukturun inkişafı sahələrinin Ukrayna üçün prioritet sahələr olduğunu bildirdi. Gələcəkdə əməkdaşlığın daha da genişləndirilməsi barədə ümumi razılığa gəlindiyindən məmnun qaldığını bildirən V.Zelenski dedi: "Cənub Qaz Dəhlizi layihəsi də bizim ölkəmiz tərəfindən xüsusi izlənilir. Bu layihənin genişləndirilərək Avropa istehlakçılarına çatdırılmasına öz töhfəmizi müzakirə etdik. Xüsusilə də hesab edirəm ki, bizim – həm Ukraynanın, həm də Azərbaycanın misilsiz nəqliyyat potensialı var. Biz belə qərara gəldik ki, nəqliyyat və aviasiya daşımaları sahələrində də təmaslarımızı, əməkdaşlığımızı gücləndirək. Növbəti il yanvarın sonunadək biz Kiyev şəhərində ikitərəfli Hökumətlərarası Komissiyanın iclasını təşkil edəcəyik".

Ukrayna Prezidenti milli və regional təhlükəsizlik məsələlərinin müzakirə olunduğunu da diqqətə çatdırdı və məsələnin hər iki ölkə üçün önəmli olduğunu vurğuladı: "Təbii ki, bizim bugünkü söhbətimizin əsas hissəsini milli və regional təhlükəsizlik məsələləri təşkil edirdi. Biz burada Dağlıq Qarabağ münaqişəsi və Ukraynanın şərqində baş verən münaqişəni müzakirə etdik. Biz bir-birimizi ölkələrimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsi məsələsində də dəstəkləyirik. Burada söhbət beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində bərpadan gedir. Bu baxımdan, bu prinsip həm ikitərəfli təmaslarda, həm də beynəlxalq təşkilatlar çərçivəsində bizim əməkdaşlığı özündə ehtiva edir. Bu, bizim ölkələrimizin arasında olan münasibətlərin səviyyəsinin göstəricisidir. Biz həm regional, həm də qlobal səviyyədə birgə mövqedən çıxış edirik. Azərbaycana 2020-ci ildə GUAM-a uğurlu sədrlik arzu edirəm".

Prezident V.Zelenski 90-dan çox Ukrayna, 100-dən artıq Azərbaycan şirkətinin iştirak etdiyi biznes forumu çox mühüm hadisə adlandırdı və Azərbaycan şirkətlərini Ukraynada da görmək, xüsusilə yolların tikintisində fəaliyyət göstərmələri arzusunda olduğunu bildirdi. Azərbaycanın "Bakcell" mobil operatorunun Ukrayna bazarına daxil olduğunu, investisiyaların 700 milyon dollara yaxın olduğunu və bu investisiyanın dövlət səviyyəsində qorunduğunu xatırlatdı. Prezident SOCAR şirkəti ilə dostluq münasibətlərini də diqqətə çatdırdı və bu şirkətin Ukraynada fəaliyyətinin daha da genişləndirilməsinin zəruriliyini qeyd etdi.

Ukrayna Prezidenti Azərbaycana səfərindən, keçirdiyi görüşlərdən, imzalanan sənədlərdən məmnunluğunu ifadə etdi.

Səfər çərçivəsində diqqət çəkən məqamlardan biri də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Ukraynanın birinci xanımı Yelena Zelenskayanın görüşü oldu. Çay süfrəsi arxasında keçirilən görüşdə Mehriban Əliyeva Yelena Zelenskayanı Bakıda görməkdən məmnun olduğunu və bu səfərin ölkəmizlə daha yaxından tanış olmaq üçün gözəl imkan yaratdığını bildirdi.

**Əliqismət BƏDƏLOV,**
**"Xalq qəzeti"**